**2020-ci ilin birinci rübündə Azərbaycan Respublikasında sosial sektorun inkişafı barədə**

**Əhalinin gəlirləri**

İlkin məlumatlara görə, 2020-ci il yanvar-mart aylarında ölkə əhalisinin nominal gəlirləri əvvəlki ilin eyni dövrünə nisbətən 6,8 faiz artaraq 13442,5 milyon manat təşkil etmiş, əhalinin hər nəfərinə orta hesabla 1350,2 manatlıq gəlir düşmüşdür.

Bütün icbari və könüllü ödənişlər edildikdən sonra əhalinin sərəncamında 12195,5 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrünə nisbətən 5,8 faiz çox vəsait qalmışdır.



**Əmək haqqı**

2020-ci ilin yanvar-fevral aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 2019-cu ilin müvafiq dövrünə nisbətən 28,4 faiz artaraq 712,3 manat təşkil etmişdir. Əməkhaqqı neft-qaz sektorunda 3581,9 manat, qeyri neft-qaz sektorunda 650,1 manat təşkil etmişdir. Dövlət müəssisələrində çalışan işçilərin əməkhaqları 607,7 manat, özəl müəssisələrdə isə 845,9 manat olmuşdur.

Mədənçıxarma sənayesində, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı ölkə üzrə orta göstəricidən yüksək olmuşdur.



## Demoqrafik vəziyyət

İlin əvvəlindən ölkə əhalisinin sayı 12192 nəfər və ya 0,1 faiz artaraq 2020-ci il mart ayının 1-i vəziyyətinə 10079300 nəfərə çatmışdır. Əhalinin 52,8 faizini şəhər, 47,2 faizini kənd sakinləri, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir.

2020-ci ilin yanvar-fevral ayları ərzində ölkə üzrə 22321 doğulan körpə qeydə alınmış və əhalinin hər 1000 nəfərinə bu göstərici 13,7 təşkil etmişdir.

